# SOFU BİLAL İŞIĞINDA

Tədqiqatçı-publisist Yusif Dirilinin "Nuh peyğəmbər, Mazannənə və Sofu ocağı" ("Nərgiz", 2012) adlı kitabı el şairi Sofu Bilalın şəcərəsi, həyatı və yaradıcılığı işığında qələmə alınıb. Qeyd edim ki, Sofu Bilal Rzayev 1940-cı ildə Cəbrayılın Qumlaq kəndində Sofu Usub (Yusif) kişinin ocağında dünyaya gəlmişdi. Kitabın "Həyatı və kimliyi" adlı bölməsində qeyd olunur ki, "İlanı ram etmək, ilanla "oynamaq" Sofu Usubun ocaq taleyi idi. "İlan ocağı" adı bu nəslə təsadüfi verilməmişdi". Digər bir yerdə isə belə bir qeydə rast gəlinir: "İlan ocağının başında Sofu Bilalın babası Sofu Fərəc və atası Sofu Usub durur" (s.20). Bu izahat Sofu Fərəc - Sofu Usub - Sofu Bilal şəcərəsinin daşıdıqları "Sofu" ifadəsinin konkret olaraq "ilan ocağı" mənasını işarələdiyini göstərir. Başqa sözlə, "sofu" sözü polisemantik çalar daşıyır və buradakı sofu sözü, sofu ocağı konkret olaraq "ilan ocağı" mənasını daşıyır.

Yusif Dirili tədqiqatçılıq prinsipinə uyğun olaraq kitabda "Sofu Bilal və şəcərəsi" adlı bölümdə sofu ifadəsi ilə bağlı bir sıra mövcud faktları da diqqətə çəkir: "Sofu Bilal müəllimin mənsub olduğu müqəddəs bir ocağın tarixi adıdır. Bizə görə, mənşə etibarı ilə sufilərə bağlanır.

Başqa sözlə, Sofu ifadəsi sufilərdən gəlir. Mahiyyətcə, Allaha yaxınlaşmaq, ona qovuşmaq deməkdir. Sufizmi cərəyanı İslam dininin tarixində bir qol kimi mövcud olmuş, sonradan atrofiyaya uğrayaraq, mənaca eyni, formaca müxtəlif şəkillərdə gəlib bizə çatmışdır. Sufi sözü indiyədək sofu, sofuluq, sofulular kimi yaşamaqdadır. Azərbaycanın etnogenezində iştirak etmiş kəngərlilərin bir qolu sofulular adlanırdı (ASE VIII cild, 1984, səh.595). Zəngəzur, Qazax zonasında yaşamışlar. Tovuz rayonunda Sofular, Ağdam, Qazax, Cəbrayıl rayonlarında Sofulu adında kənd, Qobustan rayonunun Dərəkənd kəndində isə "sofulu" deyilən nəsil bu gün də mövcuddur. Bu nəslin nümayəndələri Mirbaba və Vahid Hüseynov qardaşları öz halal çörəyi ilə qidalanan, haram işlərdən, qeybətdən uzaq, əməlisaleh olmayanların tamını dadmayan, belələrinin kəsdiyi heyvanın ətini yeməyən, daim Allaha ibadət edən adamların "sofulular" kimi tanındıqlarını söyləyirlər. Mənsub olduqları "sofulular" nəslinin kökündə ulu babaları Qəşdədin oğlu Sofu Daşdəmirin durduğunu deyirlər. Sofu Daşdəmir Qəşdədin beş övladından biridir. Fikrimizcə, qardaşlarından fərqli olaraq, məhz Daşdəmirin "sofu" adlandırılması onun daha çox əməlisaleh, halalzadə kimi qəbul edilməsi ilə bağlı olub. O, bu haqqı qazanmışdı. Sofu Daşdəmirdən başlanan sofulular nəslinə "ocaqzadə" (ocaq övladı, ocağa mənsub) deyilməsi təbiidir. Bu nəsil arasında Şıx Eyyub Övliyanın müridləri, Həccə gedənlər, şil durğuzanlar (xəstəni, şikəsti sağaldan, ayağa qaldıran), Diri Babada dəfn olunanlar vardır. Qeyd edək ki, Diri Baba mağaraya çəkilən xəlvətilik cərəyanının əsasında duran övliyalardan olub.

Başqa bir misal. Zəngilan rayonunun Yeməzli sovetliyi ərazisində "Sofular" adlı pir və "Sofular" qəbiristanlığı vardır. Yuxarı Yeməzli kəndinin sakinləri Möhübbət və Ərşad Qurbanov əsillərinin sofululara söykəndiyini qeyd edirlər. Təsadüfi deyildir ki, onların ulu babaları Seyid Mustafa da "Sofu" adını daşıyıb. Bu da onu göstərir ki, ölkəmizin müxtəlif bölgələrində mövcud olan "sofular" və ya "sofulular" eyni mənşəyə malikdirlər.

"Əsli və Kərəm" dastanında da Kərəmin lələsinin (tərbiyəçisinin) adı Sofudur. "Mahmud gününü lələsi Sofu ilə keçirirdi" ("Azərbaycan dastanları", II cild, "Lider", 2005, səh.9) Qara keşiş Əslini Kərəmdən ayırıb aparanda:

Durma gedək Sofu lələ,

Yenə Əslim köç edibdi, -deyir Kərəm. Dastanın sonunda oxuyuruq: "Əsli və Kərəmin külünü bir qəbirdə basdırdılar. Sofu da ölənəcən bu gümbəzdə mücəvir oldu". Burada həm sofu, həm də mücəvir sözləri mənaca dinə bağlanır. "Sofilik" - yunanca dindarlıq, zahidlik deməkdir (Azərbaycan dilinin izahlı lüğəti, Elm, 1987, səh.99). "Mücavir" ərəbcə bir ibadətgah və ya türbə yanında ibadətə çəkilmiş adam, digər anlamda pir, ya məscid xidmətçisi (Ərəb və fars sözləri lüğəti. "Yazıçı", 1985, səh.450) deməkdir.

Mifoloq-tədqiqatçı, şair Məmməd Elli "Sofu" anlayışının kökündə "Sofiya" sözünün (latınca) dayandığını ehtimal edir. Onun fikrincə, ocaq, pir, övliya anlamına uyğun gələn "sofu" xalq tərəfindən sevilən şəxsiyyət deməkdir".

Əlbəttə ki, burada Yusif Dirili ehtimalla danışdığına da haqlı olaraq işarə vurub: "Bizə görə, mənşə etibarilə sufilərə bağlanır". Bu, ehtimaldır, fərziyyədir. Çünki gətirilən sitatdan da Sofu sözünün müxtəlif aspektlərdən mənalandığı, sofuluların müxtəlif guşələrə səpələnməsi və s.b.k. faktlar göz önündədir. Ona görə də böyük bir ulusun adını daşıyan Sofulu tayfası və Sofu ifadəsi arasındakı yaxınlıqlarla yanaşı, müəyyən sərhədlər də vardır ki, bu sahədə konkret fikir söyləmək o qədər də asan məsələ deyil. Mənə belə gəlir ki, Sofu Usub oğlu Sofu Bilalın da sofuluğunu onun sofululuğundan çox sofuluğunda görmək lazımdır. Çünki buradakı sofu sözü konkret olaraq peşə-məşğuliyyət sahəsi ilə bağlı anlamı (ocaqlığı) bildirir: Sofu ocağı - ilan ocağı, yəni ilanı ofsunlayan kəs.

Kitabın digər bölmələrində isə əsas etibarilə bir yazı-pozu əhli kimi - el şairi Sofu Bilalın şeirləri işığında müəllifin qənaətləri və ayrı-ayrı söz adamlarının ona ünvanlanmış fikirləri özünə yer almışdır. Biz də öz növbəmizdə Sofu Bilalın ruhu şad olsun deyirik. Onsuz da şaddır, nisgili ilə dünyaya göz yumduğu doğma yurdu artıq işğaldan azaddır.

***Şakir SSLİFOĞLU***

Kredo .- 2022.- 26 oktyabr.- S.7.